Chandon, Mclaren Honda Formula 1(TM) Komandasının yeni rəsmi tərəfdaşı oldu

LONDON, 30 Sentyabr, 2015/PRNewswire/ --

Bu gün Chandon, McLaren Honda Formula 1 Komandası ilə yeni maraqlı bir tərəfdaşlığa imza atdığını açıqladı. Formula 1 tarixinin ən uğurlu komandalarından biri kimi McLaren, canlı köpükləri ilə məşhur Chandon şərabını sonsuz bir fəth etmə ruhu ilə qarşılayır. Bu tərəfdaşlıq Chandon-un azad ruhunu təmsil edən 'joie de vivre' ("həyatın nəşəsi") devizini və həyata spontan baxış tərzini mükəmməl şəkildə vurğulayır.

Sözü gedən tərəfdaşlığı, Chandon-un özünəməxsus köpüklü şərabları ilə McLaren Honda Formula 1 Komandasına gətirdiyi yeni bir yanaşma, uzun-müddətli və qlobal bir əməkdaşlıq da adlandırmaq olar.

Tərəfdaşlıq bu gün rəsmi olaraq Vokinq, Surrey, İngiltərədə yerləşən McLaren Texnologiya Mərkəzində imzalandı. İmzalar, Moët Hennessy-nin Sədri və Baş İcraçı Direktoru Christophe Navarre və McLaren Technology Group-un Sədri və Baş İcraçı Direktoru Ron Dennis tərəfindən atıldı.

Chandon və McLaren Honda Formula 1 Komandası: Uzun-müddətli əməkdaşlıq üçün iki rəmzin birləşməsi

Formula 1 yarışı, həyəcan dolu beynəlxalq bir idman tədbiridir və McLaren Honda Formula 1 Komandasının ehtirası və əfsanəvi çempionları uzun müddət hamımızın qəlbində özünə yer etmişdir.

McLaren və Honda 2015 Formula 1 mövsümünün başında hippodroma tərəfdaş olaraq qayıtdılar. Bu tərəfdaşlıq mühərrik idmanları tarixinin ən dominant cütlüklərindən birini birləşdirir: 1988 və 92-ci illər arasında McLaren və Honda səkkiz dünya çempionatı, 44 qran-pri qazanmış, 53 poul-mövqe və 30 ən sürətli dairə yarışı göstərməklə isə ümumilikdə 80 qran-pri əldə etmişdir.

"McLaren Honda Formula 1 Komandasının hekayəsi qlobal idman səhnəsində duran və qəhrəmanlıq çempionları ilə dolu insan səyləri ilə xarakterizə olunur. O, anı yaxalayan və yeni mübarizələrə hər zaman açıq olan bir komandadır" deyə, Christophe Navarre əlavə etdi: "Chandon üçün McLaren Honda Formula 1 Komandası ilə tərəfdaşlıq etməkdən daha xoş bir yenilik ola bilməzdi. Bu, bütün dünyadakı azarkeşlərimizi bir araya gətirmək və bu birləşmənin dərinliyindən zövq almaq üçün yeni və zəngin bir imkandır."

Ron Dennis dedi: " Moët Hennessy-nin birgə və uzun-müddətli tərəfdaşlıq yaratmaq üçün Chandom vasitəsilə McLaren Honda komandası ilə birləşməsi son dərəcə həyəcan verici bir yenilikdir. Nə etməyimizdən asılı olmayaraq buna özünəməxsus stil və baxış tərzi ilə birgə yenilik qatmaq üçün hər ikisinin də paylaşdığı ehtiras Chandon ilə McLaren Honda arasındakı

təbii uyğunluğu qoruyur. McLaren Honda-da hər kəs üçün nüfuzlu Moët Hennessy portfelinin rəmzi markalarından biri olan Chandon ilə tərəfdaşlıq etmək böyük bir imtiyazdır.”

Chandon-un əsası bu cür azad ruh və əməkdaşlıq ilə qoyulmuşdur: bu, nəzərə çarpan və məhsuldar görüşləri özünə cəlb edən bir düşüncə tərzidir. Tanınmış enoloq Renaud Poirier dünyanı kəşf etmək və köpüklü şərab istehsalı üçün ən yaxşı terruarları tapmaq məqsədilə yola çıxdı. Əvvəlcə o 1959-cu ildə Mendoza, Argentinaya çatdı və ənənəvi Fransız şərabçılığına məxsus ustalığı yerli növlərlə uyğunlaşdıraraq yerli şərab istehsalçıları ilə əməkdaşlıq etdi. Nəticədə, fərqlilik yaratmaq üçün bu universal açıq fikirlilik və əlverişli yanaşma sayəsində yerli köpüklü şərabların qeyri-adi yeni bir növü ortaya çıxdı. Bu gün, artıq 55 il sonra, Argentinada (1959), ABŞ-da (1973), Braziliyada (1973), Avstraliyada (1986), Hindistanda (2013) və Çində (2014) Chandon-un üzüm bağları salınıb. Orijinal və sayılıb-seçilən marka kimi Chandon şərablarından dünyanın dörd bir yanında zövqlə istifadə olunur.

Chandon və McLaren

Zamana qucaq açmanın və qabaqcıl texnologiyalarla ayaqlaşmanın yollarını hər kəs McLaren və Chandon kimi doğru təxmin edə bilməz! McLaren-in misilsiz yarış avtomobilləri, Chandon-nun isə şərabçılıq sahəsindəki məharətləri və şərab istehsalında mükəmməllik əldə etmək üçün apardığı qlobal tədqiqatları hər iki tərəfdaşın da fəth etmə ruhunu və qüsursuz yeniliyi birləşdirməsi ilə nəticələndi.

İddialı bir yarışın və yaxud da yaxşı bir günün sonunda hər zaman qeyd etməyə, zövq almağa və bir az dincəlməyə səbəb tapılar! Həyatın sürprizlərinə açıq ola bildiyiniz anlarda Chandon, mükəmməl köpüklü tostunuz və mağazalardan əldə edə biləcəyiniz xoş fürsətlərdir.

Chandon və McLaren Honda birlikdə dünyanın ən kosmopolit şəhərlərində təqdim olunur. Formula 1 beş qitənin 19 ölkəsində keçirilir və Chandon öz şərablarını altı ölkədə istehsal etməklə yanaşı, o da beş qitədə özünü göstərir.

Chandon haqqında

Chandon LVMH qrupunun bir hissəsini təşkil edən Moët Hennessy-nin rəmzi Maison-larından (Ev) biridir. Parlaq və təsadüfi şıqlığa sahib köpüklü şərabın yeni bir növü olan Chandon, spontan, açıq bir ruhla və orijinal əlaqələr yaratmaq arzusu ilə qurulmuşdur. Fransanın ənənəvi şərabçılıq sahəsinin ustalıqlarını yerli bacarıqlara uyğunlaşdıran Chandon, bu gün dünya miqyaslı altı şərab zavoduna sahibdir. Argentina, ABŞ, Braziliya, Avstraliya, Hindistan və Çində yerləşən bu zavodlardan hər birisi, Maison-un köpüklü şərabları yaratmaq üçün ən yaxşı terruarları tapmaq məqsədilə dünyadakı səyahətlərinin nəticəsidir.

McLaren Honda Formula 1 Komandası haqqında

McLaren komandası 1963-cü ildə Yeni Zelandiyanın yarış sürücüsü Bruce McLaren tərəfindən yaradılmışdır. McLaren 20 dünya çempionatı və 180-dən çox qran-pir qazanmışdır. Hazırda McLaren qlobal olaraq ən uğurlu idman yarışçıları və ən məşhur yüksək texnologiyalı markaları ilə tanınır.

McLaren-Honda və Chandon 2016-cı il F1 mövsümündən tərəfdaşlığa başlayacaqdır.

Mənbə: Chandon

Mətbuat sahəsində əlaqədar şəxslər: Moët Hennessy üçün Line Crieloue ELAN-Edelman line.crieloue@elanedelman.com Tel: +33-1-86-21-51-01 McLaren Technology Group üçün isə Daniel Golding Group Corporate PR Meneceri, daniel.golding@mclaren.com Tel: +44-7717-450-469